**Gənclər arasında könüllülük fəaliyyətinin təşviqinə dair**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2019-cu il tarixli Sərəncamını, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Gənc Energetiklər" könüllülük proqramının icrasına başlanılsın.
2. Könüllülük fəaliyyətinə dair elektron müraciət forması təsdiq edilsin (Əlavə 1).
3. Dövlət qulluğu və kadrlar şöbəsinə tapşırılsın ki:

3.1. könüllülük fəaliyyətinin əlaqələndirilməsini həyata keçirsin;

3.2. nazirliyin struktur bölmələrinin könüllü xidmətə ehtiyac meyarlarının edilməsi üçün sorğu aparılmasını təmin etsin;

3.3. müvafiq struktur bölmələrin rəhbərləri ilə birgə könüllülük fəaliyyətinə qoşulmaq üçün müraciət edən gənclərin seçimini həyata keçirsin;

3.4. şöbənin bir nəfər əməkdaşını könüllülər üzrə əlaqələndirici təyin etsin;

3.5. müvafiq proqramın davamlılığını təmin etsin.

4. Mətbuat sektoru könüllülük fəaliyyətinə dair elanın nazirliyin rəsmi saytında yerləşdirilməsini təmin etsin.
5. Müvafiq struktur bölmələri könüllülük fəaliyyətinin icrasını təmin etsinlər.
6. Maliyyə və təminat şöbəsi bu əmrdən irəli gələn texniki məsələlərin yerinə yetirilməsini təmin etsin.
7. Ümumi şöbə bu əmrin surətinin nazirliyin bütün struktur bölmələrinə göndərilməsini təmin etsin.
8. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

21 yanvar 2020-ci il
№ F-6

Azərbaycan Respublikası Energetika nazirinin
21 yanvar 2020-ci il tarixli F-6 nömrəli Əmri ilə
təsdiq edilmişdir.

Əlavə 1

**Könüllü fəaliyyət göstərmək üçün müraciət forması**

1. ***Soyadı, adı, atasının adı*** ______________________________________________

2. ***Cinsi*** ☐ Kişi ☐ Qadın

FOTO

(3x4)

3. ***Doğum tarixi (gün, ay, il)***________________________________________

4. ***Doğulduğu yer***__________________________________________________

(şəhər, rayon, qəsəbə, kənd)

5. ***Qeydiyyatda olduğu ünvan***________________________________________

(şəhər, rayon, qəsəbə, kənd)

6. **Faktiki yaşadığı ünvan**___________________________________________

(*qeydiyyatda olduğu ünvanda yaşamırsa*)

7. ***Vətəndaşlığı***__________________________________________

8. ***Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi***_______________________________________

9. **Ailə vəziyyəti haqqında** ☐ Evli ☐ Subay

10. ***Əlaqə telefonları*** Mobil:____________________ Ev telefonu_____________________

11. ***Elektron poçt ünvanı***____________________________________________________________

12. ***Təhsil haqqında məlumat***

**13.1.Orta təhsil səviyyəsi**____________________________________

(bitirdiyi orta təhsil müəssisəsi və il)

**13.2.Orta ixtisas təhsili səviyyəsi**_______________________________

(bitirdiyi orta təhsil müəssisəsi və il)

**13.3 Ali təhsil səviyyəsi:** ☐ Bakalavr ☐ Magistratura Digər ☐

**13.4.Ali təhsil müəssisəsinin adı və daxil olduğunuz il**_______________________________

**13.5.Fakültə və ixtisasınız:** _______________________________

13. ***Xarici Dil bilikləriniz***

Dil ☐ Kafi ☐ Yaxşı ☐ Əla ☐

Dil ☐ Kafi ☐ Yaxşı ☐ Əla ☐

Dil ☐ Kafi ☐ Yaxşı ☐ Əla ☐

14. ***Kompüter bilikləriniz:*** ___________________________________________________

15. ***İxtisasartırma kurslarında və digər tədris tədbirdlərdə iştirakınız haqqında məlumat***

| **Treninq/Kursun adı** | **Keçirilmə yeri** | **Keçirildiyi zaman** |
|---|---|---|
| | | |
| | | |

*17.**Əmək fəaliyyəti haqqında məlumat:*** ☐ *İndiyədək işləməmişəm* ☐ *Hazırda işləmirəm* ☐ *İşləyirəm*

| **Müəssisənin adı** | **Vəzifə/Gündəlik vəzifə öhdəlikləri** | **İşə qəbul və çıxma tarixi** | **Ümümi iş stajı** |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

*18. **Könüllülük təcrübəsi haqqında məlumat:*** ☐ İndiyədək könüllü olmamışam ☐ Əvvəllər könüllü olmuşam

Könüllü olduğunuz qurum,sahə və dövr______________________________________________________

(əgər könüllü olmusunuzsa)

*19. **İş gününün hansı forması üzrə işləmək istərdiniz***__________________________________

(9:00-13:00 14:00-18:00)

*20.**Əlavə etmək istədiyiniz məlumat və hobbiniz***_______________________________________________

________________________________________________________________________________________

*21.**Yaxın qohumlarınız (atanız, ananız, qardaşlarınız, bacılarınız, arvadınız* (əriniz), uşaqlarınız, qayınatanız, qayınananız) haqqında məlumat***

| ***Qohumluğun dərəcəsi*** | ***Soyadı, adı, atasının adı*** | ***Doğulduğu tarix və yer*** | ***İş yeri və vəzifəsi*** | ***Yaşadığı ünvan*** |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Azərbaycan Respublikasının Energetika Nazirliyi**

**Haqqı ödənilməyən (könüllü) fəaliyyət haqqında müqavilə №**

**1. Haqqı ödənilməyən (könüllü) fəaliyyət müqaviləsi bağlayan tərəflər:**

**1.1** Bu müqavilədə Könüllü fəaliyyətin təşkilatçısı səlahiyyətlərini həyata keçirən dövlət qurumunun adı:

Azərbaycan Respublikasının Energetika Nazirliyi

**1.2** Könüllü**:**

Adı, soyadı, atasının adı:_______________________________

Doğum tarixi və yeri:___________________________________

Ünvanı:_____________________________________________

Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, verən orqanın adı, verilmə tarixi və etibarlılıq müddəti: AZE:________________________________________________________

**2. Haqqı ödənilməyən (könüllü) fəaliyyət haqqında müqavilə müddəti:**

**2.1.** Bu müqavilə 2 ay müddətinə bağlanılır.

**2.2.** Bu müqavilənin müddəti__________________________________tarixinə qədərdir.

**3. Könüllünün cəlb olunduğu vəzifə və təlimatları:**

**3.1.** Könüllü Azərbaycan Respublikası Energetika Nazirliyinin_____________________
_____________________________________________ (sahənin adı) cəlb olunur. Könüllü aşağıda qeyd olunan vəzifə funksiyalarını vaxtında və dəqiq yerinə yetirməyə borcludur. Vəzifə funksiyalarına əlavə dəyişiklik yalnızca tərəflərin

qarşılıqlı razılığı əsasında baş verə bilər.

**3.2.** Könüllü təşkilatın maraqları naminə onun Əsasnaməsi ilə nəzərdə tutulmuş məqsədlərinin həyata keçirilməsi ilə bağlı aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

**3.2.1.** Cəlb olunduğu sahənin fəaliyyət istiqamətləri üzrə vəzifələrin icrasında işçilərə köməklik göstərmək;

**3.2.2.** Cəlb olunduğu qurumda korrespondensiyanın qəbulu və göndərilməsi habelə sənədlərin qeydə alınması, rəsmiləşdirilməsi, işlərin formalaşdırılmasında kargüzarlara köməklik göstərmək;

**3.2.3.** Həyata keçirdiyi fəaliyyət üzrə vəzifələri etik davranış qaydalarına uyğun, vaxtında və keyfiyyətlə yerinə yetirmək;

**3.2.4.** Təşkilatın əmlakına və bu müqavilə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirməsi üçün istifadə etdiyi avandanlıq və alətlərə qayğı ilə yanaşmaq;

**3.2.5.** Təşkilatın məsul şəxsinin tələbi ilə öz fəaliyyətinin nəticələri haqqında hesabat vermək;

**3.2.8.** Təşkilatın fəaliyyətini tənzimləyən daxili nizam -intizam qaydalarını, etik davranış
qaydalarını pozmamaq;

**3.2.8**. Təşkilatın xahişi ilə, müqavilədə nəzərdə tutulmuş fəaliyyət nəticələrinə nail olunması
üçün zəruri məlumatları təqdim etmək.

**3.3.** Könüllü fəaliyyətin təşkilatçısı:

**3.3.1.** Könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb edilmiş şəxslərlə müqavilə bağlamaq;

**3.3.2.** Könüllü üçün təhlükəsiz və səmərəli fəaliyyəti üçün zəruri şərait yaratmaq;

**3.3.3.** Könüllünün fəaliyyət dairəsini və bu fəaliyyətin həyata keçirildiyi yeri dəqiq müəyyənləşdirmək;

**3.3.4.** Könüllünün, bu müqavilə ilə nəzərdə tutulmuş vəzifələrin həyata keçirməsi prosesində yaranmış problemlərinin həll edilməsi üçün məsul şəxsi təyin etmək;

**3.3.5**. Könüllülərə onların hüquq və vəzifələrini izah etmək, onları təlimatlandırmaq;

**3.3.6.** Könüllü fəaliyyətin həyata keçirilməsi haqqında informasiyanı açıqlamaq, könüllü fəaliyyətin nəticələri barədə məlumat vermək;

**3.3.7**. Könüllünün tələbi ilə könüllü fəaliyyət haqqında müvafiq arayışlar vermək;

**3.3.8.** Könüllü fəaliyyətin təşkili üçün tələb olunan hüquqi, təşkilati və texniki məsələləri həll etmək;

**3.3.9.** Könüllülərə qarşı ayrı-seçkiliyə yol verməmək;

**Tərəflərin Hüquqları:**

**4. Könüllünün aşağıdakı hüquqları vardır.**

**4.1.** Müqaviləyə uyğun olaraq əmək şəraitinin yaradılmasını, zəruri hallarda isə əməyin mühafizəsinin normaları və qaydaları haqqında təlim keçirilməsini tələb etmək;

**4.2.** Könüllü fəaliyyətin şərtləri və xarakteri haqqında informasiya əldə etmək;

**4.3.** Könüllü fəaliyyət haqqında informasiya yaymaq;

**4.4.** Könüllü fəaliyyətin təşkilatçılarından görülən işlərin yeri, həcmi, xarakteri və vaxtı göstərilməklə, könüllü fəaliyyət haqqında yazılı arayış almaq;

**4.5.** Könüllü fəaliyyəti həyata keçirərkən həyatına və sağlamlığına dəymiş zərərin əvəzini könüllü fəaliyyətin təşkilatçılarından almaq;

Könüllü həmçinin:

**4.6.** Təşkilat tərəfindən həyata keçirilən tədbirlərdə iştirak etmək;

**4.7.** Bu müqavilə ilə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirlməsi prosesinə ziyan vurmamaqla, öz ixtisasını artırmaq yaxud əlavə ixtisas almaq;

**4.8.** Təşkilatın tarixi və fəaliyyəti haqqında məlumatları almaq;

**4.9.** Öz fəaliyyəti haqqında təşkilatdan yazılı rəy (xasiyyətnamə) almaq hüququna malikdir.

**5. Könüllü fəaliyyət təşkilatçısının hüquqları:**

**5.1.** Könüllü Fəaliyyəti haqqında Qanunda nəzərdə tutulmuş qaydada şəxsləri könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb etmək;

**5.2**. Könüllü Fəaliyyəti haqqında Qanunla müəyyənləşdirilmiş qaydada və əsaslarla könüllülərlə bağlanmış müqaviləyə xitam vermək;

**5.3.** Könüllülərdən müqavilədən irəli gələn öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb etmək;

**5.4.** Görülmüş işlər haqqında könüllülərdən məlumat və ya hesabat almaq;

**5.5.** Könüllü fəaliyyəti həyata keçirilərkən könüllü tərəfindən vurulmuş maddi ziyanın ödənilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tədbirlər görmək Könüllü fəaliyyətin təşkilatçısı həmçinin Müqavilə ilə müəyyən edilmiş işlərin yerinə yetirilməsi üçün, könüllünün ixtisasına, peşəsinə dair sənədləri, sağlamlıq vəziyyəti haqqında arayışı, digər şəxslərin tövsiyələrini, tələb etmək hüququna malikdir.

**6. İş və istirahət vaxtı üzrə:**

**6.1.** Könüllü gündə 4 saatdan çox olmayaraq işləyir;

**6.2.** İş saatı növbə üzrə____________başlayır, saat __________da qurtarır;

**6.3.** Həftənin________günü istirahət üçün ayrılır. (razılaşdırma yolu ilə həftənin istənilən günü)

**7. Haqqı ödənilməyən (könüllü) fəaliyyət müqaviləsinin ləğv edilməsi halları:**

**7.1.** Müqaviləyə hər hansı bir tərəfin təşəbbüsü ilə, bir həftə əvvəlcədən yazılı formada məlumat verməklə, xitam verilə bilər.

7.**2.** Mübahisəli məsələlər danışıqlar yolu ilə, bu mümkün olmadıqda AR müvafiq qanunvericilik aktlarına uyğun olaraq həll edilir.

**8. Əlavə şərtlər:**

**8.1** Müqavilə iki nüxsədə tərtib edilir və hər iki nüxsə eyni hüquqi qüvvəyə malikdir.

**9. Müqavilə bağlayan tərəflərin imzaları və ünvanları:**

Pərviz Oqtay oğlu Şahbazov

Azərbaycan Respublikasının Energetika naziri

**Ünvanı:** Bakı şəhəri, Ü.Hacıbəyli 84, Hökumət Evi

**İmza və möhür:**_______________________

**Könüllü:**

**Ünvanı:**

**İmza:**______________________

**Tarix:**_____________________